Şəki şəhərindəki "Sənətkarlar evi"ndə Şəki samovarının 3700 illik tarixinə həsr olunmuş sərgi açılıb. Sərgi "Şəki - Azərbaycanın Sənətkarlıq Paytaxtı - 2010" tədbirləri çərçivəsində təşkil edilib.



# "Sənətkarlıq paytaxtı"nda "Milli nəfəs alətləri bayramı"



**Mədəniyyət və Turizm Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə oktyabrın 19-da Şəki Dövlət Dram Teatrında məşhur el sənətkarı Ələfsər Şəkilinin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş "Milli nəfəs alətləri bayramı" keçirilib.**

Şəhər rəhbərliyi, incəsənət həvəskarları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi bayram tədbirini giriş sözü ilə şəhər mədəniyyət və turizm şöbəsinin müdiri Aydın İbrahimxəlilov açaraq, Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına uyğun olaraq 2010-cu ildə Şəkinin "Azərbaycanın Sənətkarlıq Paytaxtı" elan olunduğunu nəzərə çatdırıb. Qeyd edib ki, bu il ərzində keçirilən tədbirlər çərçivəsində təşkil edilən "Milli nəfəs alətləri bayramı"nın böyük mənəvi dəyəri var. Tədbir tarixi keçmişimizlə, milli yaşam tərzimiz və qədim musiqi sənətimizlə bağlıdır.

Milli musiqi alətlərinin məşhur ifaçıları - görkəmli tarzənlərimiz Sadıqcanın, Qurban Pirimovun, Bəhram Mansurovun, gözəl kaman ifaçısı Habil Əliyevin, ilk dəfə Azərbaycan muğamlarını və el havalarını qaboyda səsləndirən Kamil Cəlilovun Azərbaycan musiqi sənətinin inkişafında müstəsna xidmətlər göstərdiyini diqqətə çatdıran natiq, belə mahir və misilsiz sənət ustalarından birinin də məhz Ələfsər Şəkili olduğunu bildirib. "Milli nəfəs alətləri bayramı"nın keçirilməsi məşhur el sənətkarının xatirəsinin yad edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Mədəniyyət və Turizm Nazirliyinin Regionlarla iş sektorunun aparıcı məsləhətçisi Oqtay Muxtarov "Milli nəfəs alətləri bayramı"nın Şəkidə keçirilməsinin heç də təsadüfi olmadığını vurğulayıb. Onun sözlərinə görə, bu şəhər Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olmaqla yanaşı, həm də milli nəfəs alətləri sənətinin zəngin ənənələrinin formalaşdığı və qorunub saxlandığı bir yerdir.

Tədbirdə çıxış edən Şəki ziyalıları, musiqisevərlər mahir el sənətkarı Ələfsər Şəkilinin yaradıcılığından danışıb, ifaçılıq sənətinin inkişafındakı xidmətlərindən bəhs ediblər.

Bayram tədbirində sənətkarın yetirmələri Baxşəli Abdurahmanov, Əyyub Məmmədov, Salyan, Şamaxı və Şabran rayonları mədəniyyət və turizm şöbələrinin "Cəngi", "Şirvan" və "Çıraqqala" folklor kollektivləri maraqlı konsert proqramı ilə çıxış ediblər. "Natiq ritm qrupu"nun çıxışı isə tamaşaçılar tərəfindən hərarətli alqışlarla qarşılanıb. Onu da qeyd edək ki, qrupun zurna və balaban ifaçısı Ələfsər Rəhimov məşhur el sənətkarı Ələfsər Şəkilinin nəvəsidir.

Bayram tədbirinin sonunda şəhər icra hakimiyyətinin başçısı Murad Cabbarlı ifaçılara fəxri fərman və xatirə hədiyyələri təqdim edib.



# Şəki samovarının 3700 yaşı var

**Şəki şəhərindəki "Sənətkarlar evi"ndə Şəki samovarının 3700 illik tarixinə həsr olunmuş sərgi açılıb. Bu münasibətlə keçirilən mərasimi giriş sözü ilə şəhər mədəniyyət və turizm şöbəsinin müdiri Aydın İbrahimxəlilov açaraq, sərginin "Şəki - Azərbaycanın Sənətkarlıq Paytaxtı - 2010" tədbirləri çərçivəsində təşkil edildiyini diqqətə çatdırıb.**

Şöbə müdiri qeyd edib ki, respublikamızda ilk dəfə olaraq keçirilən bu sərgidə Şəkinin muzeylərində saxlanılan qədim samovarlarla yanaşı, ölkənin şimal-qərb bölgəsinin( Zaqatala, Qax, Oğuz, Qəbələ) rayonlarının muzeylərində qorunaraq bu günə çatdırılan müxtəlif formalı samovarlar da nümayiş etdirilir.

Mərasimdə çıxış edən şəhər İcra Hakimiyyəti başçısının müavini Zərinə Cavadova "Xalq Yaradıcılığı Paytaxtları" Proqramı çərçivəsində həyata keçirilən belə tədbirlərin xalqımıza xas olan tarixi-mədəni irsi qoruyub saxlamaq və onu təbliğ etmək məqsədi daşıdığını vurğulayıb. Bildirib ki, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun bölgə üzrə əməkdaşları bir neçə il əvvəl Şəki rayonu ərazisində apardıqları arxeoloji tədqiqat işləri zamanı gildən hazırlanmış çox qədim tarixə malik samovar tapıblar. Mütəxəssislərin rəyinə görə, samovar eramızdan əvvəl II minilliyin sonu, I minilliyin əvvəlinə aiddir. Gildən hazırlanan bu samovar, eyni zamanda, qədim sənətkarlıq nümunəsidir. Hazırda bu eksponat muzeydə saxlanılır. Bu nadir tapıntı belə deməyə əsas verir ki, ulu əcdadlarımız, məişətdə işlədilən bir çox əşyalar kimi, belə samovarlar da hazırlamaq ustalığına malik olublar.

Mərasimdə Mədəniyyət və Turizm Nazirliyinin Regionlarla iş sektorunun aparıcı məsləhətçisi Oqtay Muxtarov çıxış edərək, "2010-2014-cü illər Xalq Yaradıcılığı Paytaxtları" Proqramı çərçivəsində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Sonra sərgiyə baxış olub. Burada nümayiş etdirilən 60-a yaxın qədim samovar nümunələri, habelə yerli sənətkarların müasir əl işləri sərgi iştirakçılarında böyük maraq doğurub.

# Qazaxda mədəni turizm üçün geniş imkanlar var

**Öz istirahətini başqa şəhər və ölkələrdə keçirənlərin əksəriyyətini dincəlmək istədiyi məkanda yerli əhalinin tarixi keçmişi ilə mədəni səviyyəsi daha çox maraqlandırır. Ona görə də istirahət edən şəxs vaxtının çox hissəsini həmin məkanda mövcud olan muzeyləri, tarixi mədəni abidələri və tarixi yerləri ziyarət etməyə həsr edir.**

Mədəni turizm kimi səciyyələnən bu cür səfər və səyahətlər insanların özünüdərk səviyyəsinin və dünyagörüşünün yüksəlməsinə xidmət etməklə onların mənəvi dünyasına rahatlıq gətirir. Bu baxımdan Qazax rayonunda da mədəni turizmin inkişafı üçün geniş imkanlar var.

Rayonda dövlət qeydiyyatına götürülmüş 46 memarlıq, 54 arxeoloji abidə, 7 monumental heykəltəraşlıq, 7 xatirə memorial və memarlıq kompleksləri, o cümlədən tarix diyarşünaslıq muzeyi, Molla Pənah Vaqif və Molla Vəli Vidadinin xatirə muzeyi, Dövlət Rəsm Qalereyası, Heydər Əliyev adına Elm Mərkəzi, İtaliyanın milli qəhrəmanı, həmyerlimiz Tahir İsayevin ev-muzeyi, Dövlət Dram Teatrı, Səməd Vurğun Poeziya Evi və Qazax torpağının yetirdiyi görkəmli adamların şərəfinə yaradılmış Mütəfəkkirlər parkı fəaliyyət göstərir.



Bu potensialdan səmərəli istifadə etməklə rayonumuzda mədəni turizmin inkişafına böyük təkan vermək olar. Lakin bu işə başlamazdan əvvəl həmin obyektlərdə hazırlıq işləri aparılmalıdır. Abidələrdə bərpa işləri görülməli, onların yaxınlığına gedən yollar yenidən qurulmalıdır.

Məsələn, Daş Salahlı kəndindəki VII əsrə aid edilən ölkə əhəmiyyətli Alban məbədinin uçmaq təhlükəsi, Xanlıqlar kəndindəki VI-VII əsrlərə aid edilən ölkə əhəmiyyətli «Didəban qülləsi»nin gövdəsində əmələ gəlmiş təhlükəli çatlar, XII əsrdə inşa edilmiş dünya əhəmiyyətli Qırmızı (Sınıq) körpünün giriş hissəsinin çökməsi, 100 ildən çox yaşı olan qoşa günbəzli «İsrafil ağa hamamı»nın bərpa-təmir işlərinə ehtiyacı, tunc dövrünə aid dünya əhəmiyyətli «Baba Dərviş» arxeoloji abidəsinin ərazisində yerləşən qədim qəbiristanlığa gedən yolun əlverişli olmaması, I Şıxlı kəndindəki XIX əsrə aid türbənin sökülmüş dam örtüyü və şəhər qəbiristanlığındakı XIX əsrə məxsus 2 türbənin isə yarıya qədər uçmuş vəziyyəti burada təmir-bərpa işlərinin aparılmasını zəruri edir.

Tarixi abidə kimi, Qori Müəllimlər Seminariyasının 1918-ci ildə Firudin bəy Köçərlinin rəhbərliyi ilə Qazağa köçürülmüş Azərbaycan şöbəsinin yerləşdiyi bina turistlər üçün ən maraqlı obyektlərdəndir. Bina Məşədi İbrahim Kosalının seminariya üçün bağışladığı 17 otaqdan ibarət olan şəxsi mülküdür. 1959-cu ilədək fəaliyyəti dövründə 3 minə qədər müəllim kadrı hazırlayıb xalqa xidmətə göndərmiş təhsil ocağının hər bir daşı-divarı savadsızlıqla mübarizə illərinin tarixindən xəbər verir. Hazırda 4 №-li orta məktəbin yerləşdiyi bu binada dahi şair S.Vurğunun təhsil aldığı sinif otağı ilə onun əyləşdiyi parta və burada yaradılmış muzeydə seminariyanın tarixini əks etdirən eksponatlar nümayiş etdirilir. Binanın sinif otaqlarının mədəni turizm tələblərinə cavab verə biləcək səviyyədə təmir-bərpasına ehtiyac var.

**Nofəl Qurbanov,**
***Qazax rayon Mədəniyyət və Turizm şöbəsinin əməkdaşı***